No: 02 2026
https://doi.org/10.64400/ea26-02-05
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MİFOLOJİ DÜŞÜNCƏNİN ƏDƏBİYYATA ESTETİK TRANSFORMASİYASI

**Fidan İBİŞLİ**
Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* fidanmirzezade95@gmail.com

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* *06.06.2026*
*Nəşr edilmə tarixi:* *25.06.2026*

**AÇAR SÖZLƏR:**
*mifoloji düşüncə, mədəni yaddaş, rasional düşüncə,* estetik transformasiya, ədəbiyyat
.

**XÜLASƏ**
Mifoloji düşüncə bəşəriyyətin ilkin dünyagörüş forması kimi ədəbiyyatın yaranması və inkişafında mühüm rol oynamışdır. Müasir humanitar elmlərdə mif və ədəbiyyat münasibətlərinin yenidən nəzərdən keçirilməsi bu sahədə nəzəri araşdırmaların aktuallığını artırmışdır. Tədqiqatın əsas məqsədi mifoloji düşüncənin ədəbi mətndə keçirdiyi funksional, semantik və estetik transformasiyanı müəyyənləşdirmək, onun müasir ədəbi diskursdakı rolunu sistemli şəkildə təhlil etməkdir. Araşdırma zamanı müqayisəli-tipoloji analiz, struktur-semantik təhlil və intertekstual yanaşma metodlarından istifadə olunmuşdur. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, mif ədəbiyyatda yalnız süjet, motiv və obraz mənbəyi kimi deyil, həm də mətnin dərin strukturunu formalaşdıran arxetipik model və mənayaratma mexanizmi kimi çıxış edir. Klassik ədəbiyyatda mif daha çox sakral və simvolik funksiya daşıdığı halda, postmodern ədəbiyyatda dekonstruktiv və ironik kontekst qazanır. Bununla belə, hər iki mərhələdə mif mədəni yaddaşın qorunması və yenidən interpretasiyası vasitəsi kimi ortaya çıxır. Eyni zamanda, mifoloji strukturların yenidən işlənməsi ədəbi mətndə zaman və məkan kateqoriyalarının şərti xarakterini üzə çıxarır. Bu isə müəllifin fərdi poetikasının formalaşmasına və oxucu ilə yeni semantik münasibətin qurulmasına şərait yaradır. Nəticə etibarilə mifoloji düşüncə ədəbi mətndə transformasiya olunaraq yeni estetik keyfiyyətlər qazanır və müəllif interpretasiyası vasitəsilə çoxqatlı semantik sistem formalaşdırır.

## GİRİŞ

Mif bəşəriyyətin dünyanı anlama və izah etmə cəhdlərinin ilkin forması kimi insan şüurunun formalaşdığı erkən dövrlərdə meydana çıxmışdır. İbtidai insan üçün mif sadəcə bədii təxəyyülün məhsulu deyil, ətraf aləmin, təbiət hadisələrinin və insan varlığının mənasını açıqlayan əsas düşüncə modeli idi. Mif vasitəsilə insan kosmosu xaosdan ayırmış, zaman və məkan anlayışlarını müəyyən etmişdir.

İnsanın dünyanı dərk etməsinin ən ilkin, simvolik və sakral forması mifoloji düşüncə hesab olunur. Bu düşüncə forması müasir rasional idrakdan fərqli olaraq, insanın ətraf aləmi, baş verən hadisələri səbəb–nəticə əlaqələri çərçivəsində deyil, obrazlar, simvollar və müqəddəs hekayələr vasitəsilə qavradığı düşüncə formasıdır. S.Rzasoyun qeyd etdiyi kimi, "mifologiya" və onun struktur vahidi olan "mif" insanlığın – bəşəriyyətin şüur tarixinin ilkin mərhələsidir. Bu, elmdə mifoloji şüur mərhələsi adlanır. Bizim müasir şüurumuzu mifoloji şüurdan tarixi zaman baxımından minilliklər ayırır (Rzasoy, 2023).

Təqdim olunan məqalədə mifoloji düşüncənin mahiyyəti və onun ədəbiyyatda keçirdiyi transformasiya prosesi nəzəri aspektdən araşdırılır. Məqsəd mifin ədəbiyyatda yalnız motiv və süjet mənbəyi kimi deyil, həm də estetik struktur və mənayaratma modeli kimi çıxış etdiyini göstərməkdir.

## TƏHLİL

Mifoloji düşüncə simvolik, sakral məna daşıyır və kollektiv şüurun məhsuludur. O, rasional deyil, amma məntiqsiz də deyil, elmi idrakdan fərqlidir, lakin öz daxilində ardıcıl və sistemlidir. Qısacası, mifoloji düşüncə insanın dünyanı sakral, simvolik və obrazlı modellər vasitəsilə dərk etdiyi, kosmos, zaman və insan varlığını mənalandıran ilkin düşüncə formasıdır.

Mifoloji düşüncənin ədəbiyyatla əlaqəsinə gəlincə deyə bilərik ki, o, ədəbiyyatın başlanğıc mərhələsini təşkil etmiş, sonrakı dövrlərdə isə estetik transformasiyaya uğrayaraq bədii mətnlərin struktur və semantik modelinə çevrilmişdir. Pərvanə Bəkirqızının qeyd etdiyi kimi, "Mədəniyyətin və xüsusən də ədəbi-bədii fikir tarixinin araşdırılması belə bir həqiqəti sübuta yetirir ki, özünün bütün

inkişaf mərhələləri boyunca ədəbiyyat həmişə mifoloji irslə, mifoloji düşüncə tipi ilə sıx və qarşılıqlı münasibətdə olmuşdur" (İsayeva, 2016).

Ədəbiyyat mifoloji düşüncənin tarixi inkişafı nəticəsində estetik və rasional şüur səviyyəsinə yüksəliş forması kimi meydana çıxmışdır. İlkin mərhələlərdə mif və ədəbiyyat eyni semantik sahədə özünü göstərmiş, lakin zaman keçdikcə ədəbiyyat mifdən fərqli olaraq müəllif şüurunun, fərdi estetik mövqenin və bədii şərhin üstünlük təşkil etdiyi bir ifadə formasına çevrilmişdir. Buna baxmayaraq, mif ədəbiyyatın formalaşmasında yalnız başlanğıc mərhələ kimi deyil, həm də onun struktur və məna modelini müəyyənləşdirən davamlı mənbə kimi çıxış etmişdir.

Mifin ədəbiyyata transformasiyası məsələsi uzun müddət təkamül xətti üzrə izah edilmiş, mif ibtidai, ədəbiyyat isə daha yüksək inkişaf mərhələsi kimi dəyərləndirilmişdir. "Təkamül" anlayışı mifin ibtidai, natamam, ədəbiyyatın isə daha inkişaf etmiş forma olduğu təsəvvürünə əsaslanır. Bu yanaşmaya görə, mif tarixi mərhələdə öz rolunu bitirir və yerini ədəbiyyata verir. Lakin müasir mifoloji və ədəbiyyatşünaslıq tədqiqatları bu baxışın birtərəfli olduğunu göstərir. Xüsusilə Mirça Eliade, Robert A.Seqal və Klod Levi-Stross kimi tədqiqatçıların əsərlərində mifin fərqli funksiyalara malik alternativ düşüncə sistemi olduğu vurğulanır. Bu baxımdan mifin ədəbiyyatda mövcudluğu təkamül yox, semantik və estetik transformasiya prosesi kimi anlaşılmalıdır. Semantik transformasiya dedikdə mifin məzmun və mənasının dəyişməsi nəzərdə tutulur. Mif ədəbiyyatda artıq müqəddəs həqiqət kimi deyil, simvolik, fəlsəfi və ya estetik məna daşıyıcısı kimi təqdim olunur.

Estetik transformasiya isə mifin bədii forma daxilində yenidən qurulmasıdır**.** Ədəbiyyatda mif müəllif şüuruna tabe olur, fərdi interpretasiyaya açılır, yəni mifoloji süjet müəllifin və ya oxucunun şəxsi dünyagörüşü və düşüncə sistemi əsasında yenidən mənalandırılır, bədii məqsədlərə xidmət edir və s. Yəni mif öz strukturunu qismən qoruyur, lakin funksiyası dəyişir.

Bu baxımdan mifin ədəbiyyatda mövcudluğu onun arxaik düşüncə forması kimi aradan qalxması deyil, sakral funksiyasını itirərək semantik və estetik baxımdan yenidən mənalandırılması prosesi kimi dəyərləndirilməlidir.

Beləliklə, mifoloji düşüncə rasional elmi idrakdan əvvəlki mərhələ olsa da, öz daxilində sistemli, funksional və semantik baxımdan bütöv bir struktura malikdir. Mifin bir çox xüsusiyyətləri onun sonrakı mərhələdə ədəbiyyat üçün yalnız süjet mənbəyi deyil, həm də estetik və mənayaratma modeli kimi çıxış etməsinə zəmin yaratmışdır. Məhz bu kontekstdə mifin ədəbiyyata transformasiyası məsələsi aktuallıq qazanır və növbəti hissədə bu proses estetik aspektdən araşdırılır.

Ədəbiyyatın mifdən əsas fərqi müəllif şüurunun ön plana çıxmasıdır. Mif kollektiv şüurun məhsulu olduğu halda, ədəbi mətn fərdi estetik mövqeni əks etdirir. Bu fərqlilik mifin ədəbiyyata transformasiyasının əsas göstəricilərindən biridir. Ədəbi mətndə mifoloji obrazlar və süjetlər öz ilkin funksiyasını qoruyub saxlayaraq, tarixi, fəlsəfi və psixoloji kontekstlərdə yenidən mənalandırılır və fərdi müəllif interpretasiyasına uyğun olaraq yeni estetik qatlar qazanır. Yəni ədəbi mətndə mifoloji obrazlar və süjetlər artıq sadəcə qədim hekayə və ya simvol kimi qalmır, onlar yeni mənalarla doldurulur, fərqli aspektlərdən təhlil və şərh edilir. Məsələn, antik mifdə "Persefona" yalnız torpağın və qış-yay dövrünün simvolu olduğu halda, ədəbi mətndə onun hekayəsi ana-qız münasibəti, itki və dönüş kimi fərqli semantik qatlarla təqdim oluna bilər.

Klassik ədəbiyyatda miflər əsasən ümumbəşəri və dəyişməz sayılan ideyaların – tale və qismət anlayışının qaçılmazlığı, günah və cəza münasibətləri, qurbanvermə hadisəsinin sakral mahiyyəti, qəhrəmanlıq və mənəvi sınaq motivlərinin ifadə vasitəsi kimi çıxış etmişdir. Bu mətnlərdə mifoloji süjet və obrazlar fərdi hadisəni ümumi mənəvi qanunauyğunluq səviyyəsinə yüksəldərək insanın kosmos, ilahi nizam və etik prinsiplərə münasibətini simvolik formada təqdim edir. Beləliklə, mif klassik ədəbiyyatda sadəcə süjeti bəzəmək üçün istifadə olunmur. O, əsərin əsas ideyasını qurmağa kömək edir. İnsan həyatı, taleyin qaçılmazlığı, yaxşı-pis mübarizəsi kimi ümumi və böyük məsələlər mif vasitəsilə ifadə olunur. Yəni mif klassik ədəbiyyatda sadəcə bədii vasitə deyil, əsərin əsas ideyasını və mənəvi məzmununu formalaşdıran əsas dayaqlardan biridir.

Müasir və xüsusilə postmodern ədəbiyyatda isə mifin transformasiyası daha mürəkkəb xarakter alır. Bu mərhələdə miflər dekonstruksiya edilir, onların ilkin sakral mənası ironik və ya intertekstual formada təqdim olunur. Lakin bu, mifin funksiyasının zəifləməsi deyil, əksinə, onun

yeni estetik imkanlarının ortaya çıxması kimi qiymətləndirilməlidir. Mif artıq dəyişməz struktur deyil, çoxqatlı və açıq məna sistemi kimi ədəbi mətnin daxilində özünü göstərir.

Mifoloji düşüncənin ədəbiyyata estetik transformasiyası təkamül modeli ilə deyil, funksional dəyişmə prinsipi ilə izah oluna bilər. Yəni mif "ibtidai forma"dan "yüksək forma"ya keçmir, əksinə, fərqli tarixi və mədəni kontekstlərdə yeni funksiyalar qazanır. Bu yanaşma mif və ədəbiyyat münasibətlərinə daha çevik və müasir elmi baxış təqdim edir və mifin ədəbiyyatdakı davamlılığını əsaslandırır.

Mifoloji düşüncənin ədəbiyyata estetik transformasiyası Sofoklun *"Kral Edip"* faciəsində mifoloji tale anlayışının sakral zərurət çərçivəsindən çıxarılaraq insanın öz günahını dərk etməsi və məsuliyyət hissi üzərində qurulan fərdi faciəyə çevrilməsində, Ceyms Coysun *"Uliss"* romanında isə antik mif strukturunun müasir şəhər həyatına estetik şəkildə köçürülməsində aydın müşahidə olunur.

Azərbaycan ədəbiyyatında mifoloji düşüncənin estetik transformasiyasına nümunə olaraq Hüseyn Cavidin *"İblis"* faciəsini göstərmək olar. Əsərdə dini-mifoloji mənşəyə malik İblis obrazı ənənəvi sakral çərçivədən çıxarılaraq fəlsəfi simvol səviyyəsinə yüksəldilir. Cavid İblisi mütləq şər varlığı kimi deyil, insan cəmiyyətində mövcud olan zorakılıq, ehtiras və mənəvi deqradasiyanın metaforası kimi təqdim edir. Bu yanaşma mifin ilkin dini funksiyasını zəiflədir, lakin onun estetik və semantik potensialını gücləndirir. Beləliklə, *"İblis"* faciəsində mifoloji obraz fərdi müəllif interpretasiyası nəticəsində yenidən mənalandırılaraq bədii mətnin əsas ideya daşıyıcısına çevrilir ki, bu da mifoloji düşüncənin ədəbiyyatda estetik transformasiyasını aydın şəkildə nümayiş etdirir.

Muxtar Kazımoğlu "Hüseyn Cavid və mifoloji düşüncə məsələsində səciyyəvi məqamlar" adlı məqalədə qeyd edir ki, "Diqqət yetiriləsi cəhətlərdən biri insanı dəyişdirib şər əmələ qoşmaq istəyən İblisin özünün zahirən dəyişməsi, böyük ustalıqla cilddən-cildə girməsidir. Bu məsələdə də Hüseyn Cavid, təbii ki, mifoloji düşüncəyə əsaslanır. Romantik sənətkar nəzərə alır ki, mifdə demonik obrazlar hər şeyə qadir varlıqlar kimi təqdim olunur. Gah pirani qocaya, gah ağzı noxtalı qatıra, gah ceyrana, quşa, gül koluna, gah da bir ovuc darıya dönməsi demonik varlığın əlində su içmək kimi asan bir işdir. "İblis", eləcə də "İblisin intiqamı" əsərlərində bu cür çevrilmə və dönərgəliyin neçə-neçə epizoduna rast gəlirik" (Kazımoğlu, 2022).

Muxtar İmanovun qeyd etdiyi çevrilmə və dönərgə motivi göstərir ki, Hüseyn Cavid mifoloji düşüncənin struktur elementlərini – xüsusilə demonik obrazın metamorfoz qabiliyyətini şüurlu şəkildə bədii sistemə daxil edir. Lakin Cavid bu motivi sadəcə mifoloji təsəvvürün təkrarı kimi təqdim etmir, o, İblisin cilddən-cildə girməsini insan təbiətindəki mənəvi dəyişkənliyin və şərin müxtəlif formalarda təzahürünün simvolu kimi ümumiləşdirir. Beləliklə, mifoloji obrazın funksiyası sakral inancların ifadəsindən çıxaraq fəlsəfi-psixoloji məna daşıyıcısına çevrilir və bu da mifoloji düşüncənin estetik transformasiyasını təsdiqləyir.

## NƏTİCƏ

Aparılan araşdırmadan aydın olur ki, mifoloji düşüncə insan şüurunun ilkin mərhələsinə aid olsa da, onun semantik və struktur potensialı sonrakı mərhələlərdə, xüsusilə ədəbiyyatda aktiv şəkildə özünü göstərmişdir. Mif və ədəbiyyat münasibətlərini sadəcə təkamül xətti üzrə izah etmək bu mürəkkəb əlaqənin mahiyyətini tam əks etdirmir. Ədəbiyyat mifdən ayrılmaqla yanaşı, onun estetik və mənayaratma imkanlarını yeni formada davam etdirir.

Mifin ədəbiyyata transformasiyası sakral funksiyanın itirilməsi deyil, onun estetik və simvolik funksiyalarla əvəz olunmasıdır. Bu proses mifin bədii mətndə yalnız süjet elementi kimi deyil, həm də dərin mənalar yaradan struktur modeli kimi çıxış etdiyini sübut edir. Beləliklə, mif və ədəbiyyat arasındakı əlaqə qarşılıqlı və dinamik xarakter daşıyır.

Mifoloji düşüncənin ədəbiyyata transformasiyası problemi həm klassik, həm də müasir ədəbiyyatşünaslıq üçün aktual elmi məsələ olaraq qalır və bu istiqamətdə aparılan tədqiqatlar ədəbiyyatın dərin semantik qatlarının açılmasına imkan yaradır.

## ƏDƏBİYYATLAR

Abdulla Kamal. (2009). Mifdən Yazıya və yaxud "Gizli Dədə Qorqud-3". Bakı, Mütərcim, 336 səh.

Acaloğlu Arif. (2024). Türk xalqları mifologiyasının kökənləri. Məqalələr, tezislər və monoqrafiya. Bakı, "Elm və təhsil", 436 səh.

Armstronq Karen. (2017). Mifin qısa tarixi. Bakı, TEAS Press Nəşriyyat evi, 116s.

Bəkirqızı (İsayeva) Pərvanə. (2016). Mifopoetika və filoloji fikirdə mif konsepsiyası. Bakı, "Elm və təhsil", 128 səh.

Eliade Mircea. (2001). Mitlerin özellikleri. Om Yayınevi, İstanbul, 251 səh.

Əliyev Ramil. (2014). Türk mifoloji düşüncəsi və onun epik transformasiyaları. Bakı: Elm, 332s.

Kazımoğlu-İmanov Muxtar. (2022, noyabr). Hüseyn Cavid və Mifoloji düşüncə məsələsində səciyyəvi məqamlar. Hüseyn Cavid və mifoloji düşüncə. Bakı, "Elm və təhsil", 146 səh.

Ögəl Bahəddin. (2006). Türk mifologiyası. I cild. Bakı, "MBM", 626 səh.

Rzasoy Seyfəddin. (2008). Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı, "Nurlan"

Rzasoy Seyfəddin. (2023). Azərbaycan xalqının mifik kimlik dünyası. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. 2023/1 (59). Bakı, "Elm və təhsil".

## ABSTRACT

## THE AESTHETIC TRANSFORMATION OF MYTHOLOGICAL THINKING IN LITERATURE

**Fidan Ibishli**
**Azerbaijan University of Languages, Baku, Azerbaijan**

Mythological thinking, as one of the earliest forms of human worldview, has played a significant role in the emergence and development of literature. In contemporary humanities, the reconsideration of the relationship between myth and literature has increased the relevance of theoretical research in this field. The main objective of this study is to identify the functional, semantic, and aesthetic transformation of mythological thinking within literary texts and to systematically analyze its role in modern literary discourse. The research employs comparative-typological analysis, structural-semantic analysis, and an intertextual approach. The findings reveal that myth functions in literature not only as a source of plot, motifs, and imagery, but also as an archetypal model and a mechanism of meaning-making that shapes the deep structure of the text. While in classical literature myth primarily carries a sacred and symbolic function, in postmodern literature it acquires a deconstructive and ironic context. Nevertheless, in both stages myth serves as a means of preserving and reinterpreting cultural memory. Furthermore, the reworking of mythological structures exposes the conventional nature of temporal and spatial categories in literary texts, contributing to the formation of the author's individual poetics and establishing a new semantic relationship with the reader. Consequently, mythological thinking undergoes transformation within literary discourse, gaining new aesthetic qualities and generating multilayered semantic systems through authorial interpretation.

***Keywords:*** *mythological thinking, cultural memory, rational thinking, aesthetic transformation, literature*

## РЕЗЮМЕ

## ЭСТЕТИЧЕСКАЯ ТРАНСФОРМАЦИЯ МИФОЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ В ЛИТЕРАТУРЕ

**Фидан Ибишли**
**Азербайджанский университет языков, Баку, Азербайджан**

Мифологическое мышление как одна из древнейших форм мировосприятия сыграло значительную роль в возникновении и развитии литературы. В современной гуманитарной науке переосмысление взаимосвязи мифа и литературы усилило актуальность теоретических исследований в данной области. Основной целью данного исследования является выявление функциональной, семантической и эстетической трансформации мифологического мышления в художественном тексте, а также системный анализ его роли в современном литературном дискурсе. В работе применяются сравнительно-типологический анализ, структурно-семантический анализ и интертекстуальный подход. Установлено, что миф в литературе выступает не только источником сюжета, мотивов и образов, но и архетипической моделью и механизмом смыслообразования, формирующим глубинную структуру текста. Если в классической литературе миф преимущественно выполняет сакральную и символическую функцию, то в постмодернистской литературе он приобретает деконструктивный и иронический характер. Тем не менее, на обоих этапах миф служит средством сохранения и переосмысления культурной памяти. Кроме того, переработка мифологических структур выявляет условный характер категорий времени и пространства в художественном тексте, способствуя формированию индивидуальной поэтики автора и установлению нового семантического взаимодействия с читателем. В результате мифологическое мышление трансформируется в литературном дискурсе, приобретая новые эстетические качества и формируя многослойную систему смыслов посредством авторской интерпретации.

***Ключевые слова:*** *мифологическое мышление, культурная память, рациональное мышление, эстетическая трансформация, литература*